ədalət 2019.- 11 may.- S.13.



Qəşəm İsabəyli

# Adamın yuxusuna hörməti yoxdu Bakının

Quşların da boynu çiynində,
Büzüşüb, balacalaşıb,
Dəni,
Çəyirtkəni
Unutduğu vaxtda,
Yerimin içinə qor dolur birdən -
Qaraçı köçü kimi
Cır-cındırla basıb girir yuxuma
Zibil maşınları!

Allah saxlamış zibilyığanların da,
Sözü-söhbəti - zibil kimi.
Kəlməbaşı da
Əsəbə işləyən cır armud -
Ala-kal hırıltı.

Birdən qulaqlarım
Dünyanın ən xırda sevincinə şərik olur:
-Qələm tapmışam eeeyyy... - qət təzə...
Oğluma aparacam!
Yazıq uşaq gözüyaşlı getdi məktəbə.

"Ağlama, bala, məvacibimi alanda,
Vallah, iki qələmi birdən alacam!"
"Bilmirsən ey, ay ata,
Gözümü deşir müəllimin baxışları!"

Allahın rəhmi varmış üstümüzdə,
Hələ ki, uşaqlarımızın dili var gəlib-
"Ata" deyir bizə.

Ürəyim uyar-uymaz,
Yuxarı mərtəbədən
Kefimizə soğan doğramağa başlayır
Bir məmurun özü kimi harın iti.

Bu yandan da -
"Avtoş"a qaragözlük gələn
Yol polisinin üzgörənlik fiti.

Havalanıram birdən -
Hirsimi tökməyə adam gəzirəm:
-Eheyyy... qaçqınlar!
Nə tez çıxdı kənd-kəsək yadınızdan?!

Gələndə milyon gəlmişdiniz,
İndi beş-on min də
Arta bilmirsiniz azından?! -

Bəs deyilmi ki,
30 milyonluq şəhərin
Qəbirləri düşüb qalıb
30 illik həyatınızdan?!

Bəs deyilmi ki,
Düşmən tapdağındakı
Torpaqlarınızı
Fikrinizdən perik salan
Qaz sayğacları,
İşıq sayğacları,
Su sayğacları
Çökəndə boğazınıza - qışda?!

Nə görmüsünüz Bakıda,
Uşaqlarımızın canından iraq,
Bu, dağılmamışda?!